# AZƏRBAYCANIN REGİONLARINDA BİTKİÇİLİYİN İNKİŞAF PROBLEMLƏRİ VƏ ƏRZAQ TƏMİNATINDA BU SAHƏNİN ROLU

**Z.R.Babayeva**

*AMEA, akad.H.Ə.Əliyeva adına Coğrafiya İnstitutu*
*Az 1143, Bakı ş. H.Cavid pr., 115*

***Məqalənin tarixi:***
Daxil olub: 05 dekabr 2018
Təkrar işlənməyə göndərilib:
18 fevral 2019
Çapa qəbul olunub 14 iyun 2019

**Açar sözlər:**
ərzaq təhlükəsizliyi
kənd təsərrüfatı
ərzaq təminatı
iqtisadi rayonlar
heyvandarlıq
yeyinti sənayesi
bitkiçilik sahələri

**X ü l a s ə**

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi ən mühüm vəzifələrdən biridir. Ərzaq məhsulları istehsalı və daxili bazarın qorunması məsələlərində əsas yeri kənd təsərrüfatı məhsulları təşkil edir. Tədqiqatlar göstərir ki, ölkə əhalisinin bir sıra ərzaq və yeyinti məhsullarına olan tələbatı yerli istehsal hesabına tam şəkildə ödənilmir. Lakin kənd təsərrüfatı əhalinin məşğul olduğu əsas iqtisadi fəaliyyət sahələrindən biridir. Ona görə bu sahədə məhsuldarlığın artırılması vacib vəzifələrdən biridir.
İqtisadi rayonlar təbii şəraitinə uyğun kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə ixtisaslaşmışdır. Bu zaman ərzaq məhsullarının keyfiyyət göstəriciləri də mühüm əhəmiyyətə malikdir. Ərzaq təminatında əsas göstəricilərdən biri də ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsidir. Bu problemin həll edilməsi üçün kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi və məhsul istehsalının artırılması tələb olunur.

## 1.Giriş.

Ərzaq təhlükəsizliyi əhalinin qida məhsulları ilə daxili istehsal hesabına təmin edilməsini nəzərdə tutur. Hər bir dövlətin iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsi bütün dövrlərdə iqtisadi asılılığın qarşısının alınmasına, cəmiyyətin ehtiyaclarının ödənilməsinə yönəldilmiş tədbirlər sistemidir. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində vacib və əsas amillərdən biri daxili istehsal ilə bağlıdır. Ərzaq məhsullarının istehsalı kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. Bu vəzifənin həllinə bilavasitə təbii şərait, aqroiqlim ehtiyatları, torpaqların münbitliyi, xammal ehtiyatları və s. amilləri təsir göstərir.

Hər bir ölkənin sosial-iqtisadi inkişafında bir sıra amillərlə yanaşı, ərzaq təminatı da mühüm əhəmiyyətə malikdir. Dünya praktikası göstərir ki, ərzaq təminatı ölkənin təhlükəsizliyinin təminatında əhəmiyyətli rol oynayır. Bu istiqamətdə aparılan dövlət siyasəti əsasən iqtisadi potensialdan və təbii resurslardan istifadənin səmərəsini yüksəltməyə, əhalinin davamlı və keyfiyyətli qida məhsulları ilə təminatına yönəlmişdir. Bu baxımdan kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının sosial-iqtisadi göstəricilərinin təhlillərinin aparılması mühüm əhəmiyyət kəsb edir. Qida məhsulları istehsalı yeyinti sənayesinin tərkib hissəsi olmaqla yanaşı, istehsal sahələri arasında əlaqələrin tənzimlənməsi dərəcəsi və texnoloji yeniliklərinin tətbiqetmə imkanlarını əhatə edir. Əhalinin keyfiyyətli ərzaq məhsulları və emal sənayesi kompleksinin xammal ilə təmin edilməsi, kənd təsərrüfatının yeni texnika və texnologiyalar əsasında təşkili proseslərinin həyata keçirilməsi zəruridir. Bu sahədə tədqiqatlar aparılması günün vacib vəzifələri sırasına daxildir.

## 2. Öyrənilmə səviyyəsi.

Ərzaq təhlükəsizliyi hər bir dövlətin iqtisadi, sosial və milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu sahənin tədqiqi xarici və yerli alimlər, həmçinin beynəlxalq təşkilatlar tərəfindən aparılır. Ərzaq təminatı qlobal problem olduğu üçün dünya ölkələrində, həmçinin respublikada beynəlxalq ərzaq qurumları ilə əməkdaşlıq edilməsinə səy göstərilir.

BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO), Dünya Bankı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (İFAD), Beynəlxalq Valyuta Fondu və digər təşkilatlar dünyada ərzaq təhlükəsizliyinin təhlilini aparır. Beynəlxalq təşkilatlarının əsas məqsədi hər bir insanın minimum yaşayış göstəricisi ilə təmin edilməsi, ərzaq təminatı sahəsində olan problemlərin aradan qaldırılmasıdır [2, s. 20]. Əhalinin ərzaq təminatının yaxşılaşdırılması istiqamətində aparılan araşdırmalar onun iqtisadi rolunu qiymətləndirməklə yanaşı, təsərrüfatçılıq fəaliyyətinin tənzimlənməsinə yönəldilmişdir.

Respublikada bu problemin öyrənilməsi bir çox alimlərin elmi əsərlərində yer almışdır. Respublikada kənd təsərrüfatının ərazi təşkili, aqroiqlim ehtiyatlarından, torpaq-iqlim şəraitindən səmərəli istifadə edilməsi, ərzaq təhlükəsizliyi, istehsal olunan məhsulların tədarükü, emalı məsələlərinə dair B.T.Nəzirova [15], Ə.M.Hacızadə [25], Z.N.Eminov, N.Ə.Paşayev [22], A.A.Qurbanov və b.-nın tədqiqatlarında geniş yer ayrılmışdır.

Bu problemlər Azərbaycanın iqtisadçı alimlərdən T.Ə.Hüseynov, B.X.Ataşov, A.F.Abbasov [1], T.N.Əliyev, İ.Abasov [3] və başqalarının elmi əsərlərində təhlil edilir. Onların əsərlərində ərzaq təhlükəsizliyi, ərzaq təminatı məsələlərinə yer verilmişdir.

**3. Material və metodlar.**

Tədqiqatın prosesində təhlillərin aparılması üçün statistik baza kimi Dövlət Statistika Komitəsinin sənaye, kənd təsərrüfatı, regionların inkişafı üzrə illik məcmuələri istifadə edilmişdir. Elmi ədəbiyyatın və statistika materiallarının istfadəsi əsasında ölkədə kənd təsərrüfatının müasir ərazi təşkili və ərzaq məhsullarının istehsalının müasir vəziyyəti öyrənilmiş, bu sahələrin perspektiv inkişaf istiqamətləri müəyyən edilmişdir. Təhlillərin yerinə yetirilməsi üçün müqayisəli təhlil, ərazilərin tarixi-coğrafi cəhətdən öyrənilməsi, riyazi analiz, statistika metodları əsas kimi götürülmüşdür.

**4. Təhlil və müzakirə.**

Azərbaycanın regionlarında ərzaq təhlükəsizliyinin təminatı üçün böyük potensial imkanlar vardır. Regionlarda xammal ehtiyatlarından istifadənin, kənd təsərrüfatı üzrə bitkiçilik və heyvandarlıq sahələrinin müasir vəziyyətinin, ölkədə ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin öyrənilməsi vacibdir. Ölkədə bu vəzifələrin həll edilməsi üçün "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilmişdir [16]. Dövlət Proqramının əsas məqsədi ölkədə aparılan iqtisadi islahatların daha da dərinləşməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasını həyata keçirməkdir. Həmçinin, Dövlət Proqramı çərçivəsində ölkədə yoxsulluğun azadılması, insanların keyfiyyətli qida məhsulları ilə təminatı, ərzaq məhsullarından səmərəli istifadə edilməsi nəzərdə tutulmuşdur [16].

Əhalinin ərzaq məhsulları ilə təminatında, bu sahədə mühüm yer tutan yeyinti sənayesi üzrə müəssisələrin xammallar və yarımfabrikatlar ilə təmin edilməsində kənd təsərrüfatı mühüm yer tutur. İqtisadiyyatın mühüm sahələrindən biri olan kənd təsərrüfatı bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən bitkiçilik və heyvandarlıqdan ibarətdir. Bu sahələrin məhsullarının istehsalı və emalı müstəqillik illərində xeyli genişlənsə də, əhalinin daxili istehsal hesabına təmin edilməsində problemlər qalır [2, 4, 17, 22].

Ölkədə ərzaq məhsullarının istehsalında kənd təsərrüfatı əhəmiyyətli yer tutur. Ona görə mədəni bitkilərinin əkin sahələrinin regional paylanması kənd təsərrüfatı məhsullarının istehsalında əhəmiyyətli yer tutur. Kənd təsərrüfatı ölkənin ÜDM-nin 5,6%-ni verir [7, 8]. Bu sahədə təsərrüfatda məşğul olanların 36,6%-i çalışır. Kənd təsərrüfatı məhsullarının istehsalı üçün əkin sahələrinin həcmi mühüm göstərilərdən biridir [11, s. 104]. Ölkə ərazisinin 21,9%-ni əkinlər, 2,7%-ni çoxillik əkmələr, 30%-ni biçənək və otlaqlar təşkil edir [7].

Kənd təsərrüfatında istifadə edilən torpaqların sahəsi ilk növbədə relyef şəraitindən, aqroiqlim ehtiyatlarının paylanmasından, torpaqların növü və məhsuldarlığından, su ehtiyatlarından istifadə edilməsi imkanlarından asılıdır. Düzənlik və dağətəyi zonalar, şirin su mənbələri olan çaylara, əsas istehlakçı potensialı olan şəhərlərə yaxınlıq, emal müəssisələrinin olması əkin sahələrinin paylanmasını və genişliyini müəyyən edir. İqtisadi islahatların həyata keçirilməsindən sonra ölkədə meliorasiya tədbirlərinin həyata keçirilməsi, suvarılan ərazilərin artırılması əkin sahələrinin də genişləndirilməsinə imkan verdi. Bu səbəbdən 2000-ci ildə respublikada əkin sahələri 1041,5 min ha olduğu halda, 2010-cu ildə 1583,9 min ha-ya çatdırılmışdır. 2000-2010-cu illərdə bu göstərici 52,1%, 2010-2016-cı illərdə 2,6% artırılmışdır [7].

Düzənlik ərazilərinin geniş sahə tutması ilə əlaqədar ölkənin əkin sahələrinin əsas hissəsi Aran iqtisadi rayonunda yerləşir (Şəkil 1). Hazırda iqtisadi rayonda əkin sahələri 695,6 min ha sahə tutur. Onlar ölkə üzrə əkin sahələrinin 42,7%-ni təşkil edir. Kənd təsərrüfatı məhsullarına olan tələbatın artması əkin sahələrinin davamlı olaraq genişləndirilməsini tələb edir. Bu səbəbdən 2000-ci ilə nisbətən Aran iqtisadi rayonunda əkin sahələri 225,6 min ha və ya 48%, 2010-cu ilə nisbətən 43,6 min ha və ya 9,3% çoxalmışdır. Müvafiq olaraq 2000-ci il üçün iqtisadi rayonun bu sahədə payı 45,2%, 2010-cu ildə 41,2% olmuşdur [7]. Göründüyü kimi 2000-ci ildən sonra iqtisadi rayonun payı qismən azalmış, digər iqtisadi rayonlarda əkin sahələri daha yüksək templə artırılmışdır.




**Şəkil 1. İqtisadi rayonlarda əkin sahələrinin dinamikası**

Ölkənin digər iqtisadi rayonlarında da əkin sahələri kifayət qədər çoxdur, onların sahəsi davamlı olaraq genişləndirilir. Yalnız Abşeron iqtisadi rayonunda kənd təsərrüfatına yararlı torpaqların zəbt

edilməsi və yaşayış məntəqələrinə çevrilməsi, yollar, sənaye və digər təsərrüfat obyektləri tikilməsi əkin sahələrinin tamamilə azalmasına gətirib çıxarmışdır. Nəticədə hazırda iqtisadi rayonda əkinlər cəmi 3,4 mi ha sahədə aparılır. Onların əsas hissəsi Xızı rayonunun payına düşür. Ona görə paytaxt Bakı şəhəri və ətraf qəsəbələrin əhalisini kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün onları kənardan gətirmək lazım gəlir, hətta regionda istixanalar qurmaq, heyvandarlıq kompleksləri yaratmaq üçün torpaq sahələri ayrılması da ciddi problemlərlə qarşılaşır.

Ölkədə əkin sahələrinin miqdarına görə ikinci yeri Gəncə-Qazax (195,9 min ha) və Şəki-Zaqatala (194,0 min ha) iqtisadi rayonları tutur. 2000-ci ildə sonra regionlarda suvarma kanalları çəkilməsi, Gəncə-Qazaxda Şəmkirçay və Tovuzçay su anbarlarının yaradılması mövcud əkin sahələrində suvarma şəraitini yaxşılaşdırmaqla yanaşı, yeni sahələrin də əkin dövriyyəsinə cəlb edilməsinə imkan vermişdir. Nəticədə 2000-ci ildən sonra Gəncə-Qazax iqtisadi rayonunda əkin sahələri 79,5 min ha (68,3%) , Şəki -Zaqatalada 67,0 min ha (52,8%) çoxalmışdır [7].

XX əsrin 80-ci illərində bu regionlarda kənd təsərrüfatının əsas ixtisaslaşma sahələrində (Gəncə-Qazaxda üzümçülük, Şəki-Zaqatalada tütünçülük) baş verən tənəzzül əkin sahələrinin xeyli azalmasına səbəb olsa da, sonrakı illərdə onlar bərpa edilmişdir. Onların bir hissəsi şəxsi mülkiyyətə verilməklə təsərrüfat dövriyyəsinə qatılmışdır, digər hissəsi bələdiyyə və dövlət fondu torpaqları kimi istifadə edilir.

Dağlıq Şirvan (120,6 min ha və ya 7,4%), Lənkəran-Astara, Yuxarı Qarabağ və Quba-Xaçmaz (115-118 min ha və ya 7,1-7,3%) iqtisadi rayonlarında da əkin sahələri artırılır. Bunlar əsasən taxıl məhsulları əkinlərinin genişləndirilməsi hesabına əldə olunur. Torpaq islahatı dövründə regionlarda tütün, üzüm, pambıq, çay əkinləri kəskin şəkildə azalsa da, XXI əsrin əvvəllərində başlayaraq dənli bitkilərin becərilməsinə marağın artması təsərrüfat dövriyyəsinə daxil edilən torpaqların genişlənməsinə imkan vermişdir. Ona görə 2000-ci ildən sonra Quba-Xaçmaz iqtisadi rayonunda əkin sahələri 2,0 dəfə, Yuxarı Qarabağda 3,0 dəfə, Dağlıq Şirvanda 42,4% genişləndirilmişdir [7].

Təbii-coğrafi şəraitin nisbətən az əlverişli olması, su ehtiyatlarının məhdudluğu ilə fərqlənən Naxçıvan MR-də əkin sahələri nisbətən azdır. 2016-cı ildə MR-də 61,5 min ha (ölkə üzrə 3,8%) əkin sahəsi olmuşdur. Bu isə 2000-ci ilə nisbətən 65,8%, 2005-ci ilə nisbətən 26,0% çoxdur.

Hazırda əkin sahələrinin genişləndirilməsi imkanları məhdudlaşır. Ona görə ki, düzən ərazilərdə əkinçilik əsasən suvarma şəraitində mümkün olur, dağətəyi və alçaq dağlıq ərazilərdə eroziya, sürüşmə, deqradasiya prosesləri gedir, meliorasiya tədbirləri görülməsi üçün əlavə vəsaitlər tələb edilir. On görə əhalinin və emal müəssisələrinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün torpaqlardan səmərəli istifadə edilməsi, bitkilərinin məhsuldarlığının artırılması, aqrotexniki tədbirlərin lazımı səviyyədə və vaxtında görülməsi zəruridir. Bunun üçün kənd təsərrüfatında ixtisaslı kadrların təcrübəsindən səmərəli istifadə edilməsi, sahənin maşınlar, avadanlıqlar, mineral gübrələrlə təminatının yüksəldilməsi vacibdir.

Ölkədə ərzaq təhlükəsizliyinin təminatına xidmət edən bitkiçilik sahələrinə taxılçılıq, kartofçuluq, bostan-tərəvəz məhsullarının, giləmeyvə və meyvələrin istehsalı aiddır. Ona görə problemin həll edilməsi üçün bu sahələrin inkişafına diqqət yetirilməsi, becərilmə prosesində aqrotexniki qaydalara əməl edilməsi, məhsuldar toxum növlərinin tətbiqi, onların alınması üçün toxumçuluq mərkəzlərinin yaradılması, tədarük qiymətlərinin qaldırılması, məhsulun istehsalına dövlət dəstəyinin göstərilməsi və s. tədbirlər görülməlidir.

Bu sahələrdə məhsul istehsalının artırılmasının əsas amillərindən biri məhsuldarlığın yüksəldilməsidir. Lakin hələlik bitkiçilik sahələrində bu sahədə xeyli çətinliklər mövcuddur. Onların həll edilməsi üçün məhsuldar, yerli şəraitə uyğun növlərin alınması ilə yanaşı, mineral gübrələrdən, dərman vasitələrindən istifadə edilməsi, bitkilərə aqrotexniki qulluq göstərilməsi tələb olunur, məhsulun vaxtında toplanması, saxlama kameraları və soyuducu anbarların qurulması vacib şərtlər sırasındadır [17].

Dənli və dənli paxlalı bitkilər ölkədə ərzaq məhsulları istehsalında xüsusi yer tutur. Bu sahədə istehsal olunan buğda, qarğıdalı, günəbaxan, çəltik, dənli-paxlalı bitkilər birbaşa ərzaq kimi istehlak edilməklə yanaşı, yeyinti sənayesində xammal kimi də istifadə olunur, yağlar, yarma digər məhsullar alınır. Eyni zamanda onların tullantıları, həmçinin arpa heyvandarlıq sahələrinin əsas yem bazasıdır. Ona görə taxılçılıq ölkənin kənd təsərrüfatının əsasını təşkil edir [10, 18].

Eyni zamanda aqrar islahatların ilkin mərhələsində torpaqların özəlləşdirilməsi bu sahəyə marağın artmasına gətirib çıxardı, əhalinin böyük əksəriyyəti alınmış pay torpaqlarında arpa və buğda əkilməsinə üstünlük verirdi. Belə vəziyyət hazırda da davam edir. Ona görə ölkədə əkin sahələrinin böyük əksəriyyətini dənli və dənli-paxlalı bitkilər tutur.

**Cədvəl 1**

**İqtisadi rayonlar üzrə əkin sahələrinin paylanması, min ha**

| İqtisadi rayonlar | Dənli bitkilər | | | Texniki bitkilər | | | Kartof, bostan, tərəvəz | | | Yem bitkiləri | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2010 | 2016 | 2000 | 2010 | 2016 | 2000 | 2010 | 2016 | 2000 | 2010 | 2016 |
| Abşeron | 2,1 | 1,9 | 2,7 | - | 23 | 0,03 | 0,7 | 1,2 | 1,8 | 1,0 | 0,9 | 0,4 |
| Gəncə-Qazax | 60,9 | 90,3 | 91,1 | 4,5 | 7,8 | 11,4 | 41,8 | 46,3 | 44,3 | 9,2 | 48,9 | 49,0 |
| Şəki-Zaqatala | 111,0 | 158,3 | 151,8 | 8,3 | 1,8 | 2,6 | 9,0 | 14,6 | 14,5 | 13,7 | 26,0 | 25,2 |
| Lənkəran-Astara | 71,5 | 87,3 | 89,7 | 1,1 | 0,8 | 1,0 | 16,0 | 24,4 | 22,2 | 0,1 | 3,8 | 4,5 |
| Quba-Xaçmaz | 42,6 | 82,1 | 92,2 | 0,2 | 0,3 | 0,3 | 13,5 | 13,8 | 12,7 | 1,6 | 11,3 | 10,8 |
| Aran | 238,9 | 306,6 | 341,0 | 95,1 | 36,7 | 51,4 | 39,9 | 55,4 | 44,5 | 96,4 | 253,7 | 259,1 |
| Yuxarı Qarabağ | 29,1 | 97,8 | 79,7 | 4,8 | 3,0 | 5,0 | 2,5 | 6,3 | 6,8 | 3,5 | 26,6 | 26,2 |
| Kəlbəcər-Laçın | 2,2 | 2,7 | 2,1 | 0,001 | - | 0,02 | 0,02 | 0,1 | 0,06 | 0,001 | 1,8 | 2,3 |
| Dağlıq Şirvan | 76,0 | 104,3 | 111,7 | 1,9 | 0,3 | 1,7 | 4,0 | 5,2 | 4,3 | 2,8 | 2,3 | 3,0 |
| Naxçıvan MR | 15,3 | 36,7 | 35,5 | 2,4 | 2,0 | 0,3 | 8,8 | 11,6 | 12,0 | 10,7 | 8,9 | 13,8 |
| Az. Respublikası | 648,2 | 967,3 | 997,5 | 118,2 | 52,7 | 73,6 | 136,1 | 178,8 | 163,1 | 139,0 | 384,5 | 394,2 |

**Mənbə**: Azərbaycanın kənd təsərrüfatı – 2009. Bakı, DSK, 2010. Azərbaycanın kənd təsərrüfatı – 2014. Bakı, DSK, 2015. S. 218-219, 234-235, 242-244, 208-282. Azərbaycanın kənd təsərrüfatı – 2016. Bakı, DSK, 2017. S. 172-173, 186-187, 194-195235-236.

2016-cı ildə respublikada 997,5 min ha taxıl məhsulları əkilmişdir (Cədvəl 1). Onlar əkin sahələrinin 61,3%-ni təşkil edir. Son onilliklərdə bu sahəyə aid olan bitkilərin əkin sahələri genişləndirilir. 2000-ci ildən sonra bu göstərici 349,3 min ha (53,9%), 2005-ci ildən sonra 165,0 min ha (20,6%) artmışdır [7].

Lakin son bir neçə ildə heyvandarlığa marağın artması dənli bitkilərin əkin strukturunda buğdanın payının azalmasına. arpa əkinlərinin xüsusi çəkisinin çoxalmasına gətirib çıxarmışdır. Belə ki, 2003-cü ildə dənli və dənli-paxlalı bitkilərin əkinlərinin 48,6%-ni buğda, 11,5%-ni arpa sahələri tuturdusa, 2016-cı ildə bu göstəricilər müvafiq olaraq 35,3% və 21,8% olmuşdur. Qarğıdalı əkinləri isə 2,2-2,3% paya malikdir.

Dənli və dənli-paxlalı bitkilərin əkinlərinin regionlar üzrə paylanmasında da aparıcı yeri Aran iqtisadi rayonu tutur. Sonrakı sırada Şəki-Zaqatala (151,8 min ha) və Dağlıq Şirvan (111,7 min ha) iqtisadi rayonları durur [7, 11]. Aran iqtisadi rayonunda 341,0 min ha taxıl bitkiləri əkilir. Onlar iqtisadi rayonun əkin sahələrinin 49,0%-ni, ölkənin dənli və dənli-paxlalı bitkiləri əkininin 34,2%-ni təşkil edir. 2000-ci ildə bu göstəricilər 50,8% və 36,9%, 2010-cu ildə 47,0% və 31,7 % olmuşdur. Deməli, bütün ölkədə olduğu kimi, Aran iqtisadi rayonunda da taxılçılıq kənd təsərrüfatının aparıcı sahəsi olaraq qalır. Ona görə kənd təsərrüfatı istehlak xarakterini saxlayır.

Geniş ərazilər əhatə etməsini, daxil olan inzibati rayonların çoxluğunu, kənd əhalisinin üstünlük təşkil etməsini, onların istehlak tələbatını ödəmək üçün buğda əkinlərini genişləndirməsi ilə əlaqədar bu bitkilərin tutduğu sahələr davamlı olaraq artırılmışdır. Bu artım 2000-ci ildən sonra 102,1 min ha (42,7%), 2010-cu ildən sonra 34,4 min ha (1,2%) olmuşdur [11].

İqtisadi rayonda dənli bitkilərin əkinlərinin əsas hissəsi Neftçala (46,6 min ha) və Kürdəmir (40,4 min ha) rayonlarında yerləşir. Ağcabədi (29,2 min ha), Biləsuvar (25,7 min ha), Sabirabad (24,9 min ha), Salyan və Saatlı rayonlarında da 20,0 min hadan sahədə dənli və dənli-paxlalı bitkilər əkilir.

Şəki-Zaqatala iqtisadi rayonunda dənli və dənli-paxlalı bitkilərin əkinləri ümumi əkin sahələrinin 78,3%-i, ölkənin dənli bitki sahələrin 5,2%-ni tutur. Regionda bu sahəyə ayrılan əkin sahələri 2011-ci ilə nisbətən 40,8 min ha və ya 36,8% çoxdur. 2000-2005-ci illərdə isə dənli bitkilərin əkinləri 15,8 min ha çoxalmışdır. Lakin 2012-ci ildən başlayaraq regionda taxıl bitkilərinin əkinləri azalır, əvəzində kartof, bostan, tərəvəz əkinləri, yem bitkiləri becərilən sahələr genişləndirilir. Taxıl bitkiləri əkinlərinin strukturunda buğdanın payı da azalmağa doğru gedir [11].

Ona görə ki, iqtisadi rayonda heyvandarlıq məhsullarının istehsalı və onların baş sayı daha sürətlə inkişaf edir. 2012-2018-ci illərdə iqtisadi rayonda dənli bitkilərin əkinləri 12,0 min ha azalmışdır. İqtisadi rayonda taxıl əkinlərinin 68,7 min hektarı (45,5%) Şəki inzibati rayonunda yerləşir. Şəki ölkənin ən mühüm taxılçılıq zonalarından biridir.

Ölkənin üçüncü mühüm taxılçılıq regionu olan Dağlıq Şirvanda bu sahəyə aid bitkilər əkin sahələrinin 92,6%-ni, ölkənin dənli və dənli-paxlalı bitki sahələrinin 11,2%-ni əhatə edir. Uzun illər ərzində bura ölkənin ən mühüm üzümçülük regionlarından biri olmuş, sonradan bu sahədə baş verən tənəzzül əkinçiliyinin sahə strukturunda ciddi dəyişikliyə səbəb olmuşdur. Ona görə becərilən sahələr tamamilə taxıl əkinlərinə çevrilmişdir. İqtisadi rayona aid olan bütün inzibati rayonlarda dənli bitkilərin

becərilməsi kənd təsərrüfatının əsasını təşkil edir, o cümlədən Ağsu rayonunda 35,5 min ha, İsmayıllı rayonunda 29,9 min ha sahədə taxıl bitkiləri əkilir [7].

Ölkənin digər iqtisadi rayonları olan Quba-Xaçmaz, Gəncə-Qazax və Lənkəran-Astara iqtisadi rayonlarında 90-92 min ha sahədə, Yuxarı Qarabağda 80,0 min ha-ya yaxın ərazidə taxıl bitkiləri əkilir. Bu rayonlarda da taxılçılıq kənd təsərrüfatının mühüm sahəsi olaraq qalır. Lakin hələlik istehlak xarakterlidir. Eyni zamanda məhsuldarlığın aşağı olması, aqrotexniki qaydalara tam olaraq əməl edilməməsi ilə əlaqədar ölkənin tələbatının ¾ hissəsini ödəyir.

Ölkədə dənli bitkilərin əkin sahələrinin kifayət qədər çox olmasına baxmayaraq toplanan məhsullar daxili tələbatı ödəmir. Ona görə ki, məhsuldarlıq kifayət qədər aşağıdır (2016-ci ildə 30,6 s/ha), aqrotexniki qaydalara tam olaraq əməl edilmir, aşağı məhsuldarlığı olan toxum növləri tətbiq olunur, mineral gübrələr, digər kimyəvi maddələr və ziyanvericilərə qarşı mübarizə vasitələrinin zəif tətbiq edilməsi əsas səbəblərdir. Bu sahədə məhsulların vaxtında toplanmaması, saxlama anbarlarının kifayət qədər olmaması taxıl məhsulları ilə təminatda problemlərə səbəb olur. Ona görə tələbatın ödənilməsi üçün taxıl məhsulları, buğda və un idxal etmək lazım gəlir.

2016-cı ildə ölkədə 3065,1 min ton dənli və dənli-paxlalı bitki məhsulu, o cümlədən 1851,4 min buğda yığılmışdır. Əkin sahələrinin yerləşməsinə uyğun olaraq dənli bitki məhsullarının istehsalında aparıcı yer Aran iqtisadi rayonuna məxsusdur (Şəkil 2). Burada 2016-cı ildə 1,1 mln. t dənli və dənli-paxlalı məhsul, o cümlədən 573,3 min ton buğda toplanmışdır [7]. Onlar müvafiq olaraq ölkəmizdə toplanan məhsulların 35,9%-ni və buğdanın 31%-ni təşkil edir. Ölkənin ikinci mühüm taxılçılıq bazaları Şəki-Zaqatala və Lənkəran-Astara iqtisadi rayonlardır. Şəki-Zaqatalada ölkənin dənli və dənli-paxlalı məhsullarının 15,9%-i, o cümlədən buğdanın 14,2%-i, arpanın 13%-i yığılmışdır. Lənkəran-Astara iqtisadi rayonunda müvafiq olaraq ümumi məhsulların 11,9%-i, buğdanın 11,8%-i, toplanır. Yuxarı Qarabağ və Dağlıq Şirvan iqtisadi rayonlarında 180,0 min tondan çox, Quba-Xaçmaz və Gəncə-Qazax iqtisadi rayonlarında 160,0 min tondan çox buğda toplanır [11].

Ölkədə qarğıdalı yığımının əsas hissəsi Şəki-Zaqatala (95,6 min ton və ya 42,6%) və Aran (69,3 min ton və ya 30,9%) iqtisadi rayonlarının payına düşür (Şəkil 2). Çəltik becərilməsində aparıcı yer Aran iqtisadi rayonuna məxsusdur (4,3 min ton və ya 76,8%). İqtisadi rayonlarda əhalinin ərzaq buğdasına olan tələbatının ödənilməsi üçün ilk növbədə məhsuldar toxum növlərinin tətbiq edilməsi, aqrotexniki qulluq göstərilməsi, sahənin maşın-texniki parkının gücləndirilməsi və taxıl anbarlarının sayının artırılması tələb olunur.

Ərzaq məhsulları arasında kartof, bostan və tərəvəz məhsulları əhəmiyyətinə görə fərqlənir. Torpaq islahatı həyata keçirildikdən sonra onların əkin sahələri genişləndirilmiş, məhsul istehsal xeyli artmışdır. Ona görə bu sahələr daxili tələbatı tamamilə ödəyir, toplanan məhsulların xeyli hissəsi ixrac edilir. 2000-2005-ci illərdə bu sahələrə aid əkin sahələri ölkə üzrə 43,6 min ha (32,0%) artsa da, sonrakı dövrlərdə qismən azalma getmiş və 2016-cı ildə 163,1 min ha olmuşdur. Bu dövrdə kartof istehsalı da müəyyən qədər azalmışdır [7].




**Şəkil 2. İqtisadi rayonlarda toplanan kənd təsərrüfatı məhsulları**

**Cədvəl 2**

**Çoxillik əkin sahələri və onlardan toplanan məhsullar**

| İqtisadi rayonlar | Meyvə və giləmeyvə | | | | | | Üzüm | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Əkin sahələri, min ha | | | Toplanan məhsul, min t | | | Əkin sahələri, min ha | | | Toplanan məhsul, min t | | |
| | 2000 | 2010 | 2016 | 2000 | 2010 | 2016 | 2000 | 2010 | 2016 | 2000 | 2010 | 2016 |
| Abşeron | 2,8 | 4,0 | 6,1 | 2,8 | 5,8 | 6,6 | 2,4 | 1,7 | 1,5 | 2,6 | 15,0 | 8,5 |
| Gəncə-Qazax | 9,2 | 14,4 | 15,9 | 71,4 | 129,2 | 138,8 | 2,3 | 4,1 | 4,2 | 15,9 | 45,5 | 56,1 |
| Şəki-Zaqatala | 21,7 | 34,0 | 52,5 | 50,3 | 95,7 | 108,3 | 1,1 | 1,3 | 0,8 | 4,0 | 8,9 | 9,2 |
| Lənkəran-Astara | 3,9 | 5,1 | 6,5 | 42,7 | 41,1 | 68,2 | 0,4 | 1,7 | 1,7 | 1,3 | 5,4 | 10,0 |
| Quba-Xaçmaz | 25,9 | 34,3 | 46,7 | 132,3 | 195,4 | 256,4 | 2,4 | 0,7 | 0,9 | 11,8 | 6,2 | 7,7 |
| Aran | 14,8 | 25,2 | 30,3 | 129,0 | 197,2 | 216,5 | 1,4 | 2,5 | 2,4 | 16,7 | 24,7 | 17,5 |
| Yuxarı Qarabağ | 0,9 | 2,3 | 2,8 | 7,1 | 12,0 | 14,6 | 1,2 | 0,1 | 0,2 | 1,1 | 1,3 | 1,7 |
| Dağlıq Şirvan | 1,8 | 4,5 | 6,0 | 12,9 | 15,0 | 21,5 | 1,6 | 2,4 | 3,0 | 9,5 | 8,7 | 10,3 |
| Naxçıvan MR | 2,2 | 4,0 | 4,7 | 28,4 | 38,2 | 52,0 | 1,5 | 1,0 | 1,3 | 14,0 | 13,9 | 15,6 |
| Azərb. Respub-sı | 83,2 | 127,7 | 171,6 | 477,0 | 729,5 | 882,8 | 14,2 | 15,4 | 16,0 | 76,9 | 129,5 | 136,5 |

**Mənbə**: Azərbaycanın kənd təsərrüfatı – 2009. Bakı, DSK, 2010. s. 257-258, 355-356, 413-414, 462-463. Azərbaycanın kənd təsərrüfatı – 2014. Bakı, DSK, 2015. S. 283-284, 379-380, 442-443, 492-493. Azərbaycanın kənd təsərrüfatı – 2016. Bakı, DSK, 2017. S. 237-238, 332-333, 396-397, 445-446.

Kartof, bostan və tərəvəz əkinlərinin əsas hissəsi Aran (44,5 min ha), Gəncə-Qazax (44,3 min ha) iqtisadi rayonlarının payına düşür (27,3%). Lənkəran-Astara, Şəki-Zaqatala, Quba-Xaçmaz və Naxçıvan MR-də də bu məhsulları becərilməsinə xüsusi yer (12-14 min ha-da çox) ayrılır.

Əkilən sahələrdən toplanan kartofun yarısı (454,2 min t) Gəncə-Qazax iqtisadi rayonunun payına düşür. Lənkəran-Astara iqtisadi rayonunda da bu sahə də böyük nailiyyətlər əldə edilmişdir. Regionun payı bu sahədə 19,8%-dir. Kartof yığımı əsasən Tovuz, Şəmkir, Cəlilabad və Gədəbəy rayonlarında cəmlənir. Digər rayonlarda bu sahə istehlak xarakteri daşıyır.

Ölkədə tərəvəz becərilməsi kənd təsərrüfatının aparıcı sahələrindən biridir və məhsul yığımı ildən ilə artırılır. 2016-cı ildə onun həcmi 1270,6 min ton təşkil etmişdir [7]. Quba-Xaçmaz və Lənkəran-Astara bu sahədə ixtisaslaşmış iqtisadi rayonlar hesab edilsə də, hazırda tərəvəz yığımının 27,8% (353,5 min t) Aran iqtisadi rayonuna aiddir. Gəncə-Qazax və Lənkəran-Astara iqtisadi rayonları üçün bu məhsulun xüsusi çəkisi 17,2% (218,0 min tondan çox), Quba-Xaçmaz üçün 12,4%-dir [11].

Ölkədə bostan məhsulları toplanmasının əvvəlki illərdə olduğu kimi əsas mərkəzi Aran iqtisadi rayonudur. Burada ölkə üzrə məhsulların 75%-ə qədəri toplanır. Bu sahəyə Naxçıvan MR, Gəncə-Qazax və Şəki-Zaqatalada böyük maraq vardır.

Şəkər mühüm ərzaq məhsuludur. İmişlidə emal müəssisəsi tikilməsi və onun xammal ilə təmin edilməsi zərurəti bu sahənin inkişafını tələb edir. Ona görə əkin sahələrinin genişləndirilməsi ilə yanaşı, məhsuldarlığın yüksəldilməsi hesabına 2005-2010-cu illərdə şəkər çuğunduru yığımı 6,9 dəfə artmış və 251,9 min tona çatdırılmışdır. 2010-2018-ci illərdə onun yığımı 24,1% artmışdır. Ölkədə şəkər çuğunduru əsasən Aran iqtisadi rayonunda toplanır. Regionun payı bu sahədə 49%-dir (153,3 min t) [11].

Əhalinin ərzaq təminatında çoxillik əkinlərdən alınan məhsullar xüsusi əhəmiyyət kəsb edir (Cədvəl 2). Bu sahələrə aid olan üzümçülük və çayçılıqda müstəqillik illərində tənəzzül olsa da, meyvəçilikdə əkin sahələri və toplanan məhsulların həcmi davamlı olaraq artmışdır. Lakin son dövrlərdə bu sahələrdə də inkişaf meylləri vardır, əkin sahələri genişləndirilir. 2016-cı ildə ölkədə 16,0 min ha sahədə üzüm, 1016,0 ha sahədə çay əkinləri olmuşdur. Müvafiq olaraq üzüm yığımı 136,5 min t, çay toplanması 1015,7 t olmuşdur. Çay əsasən Lənkəran-Astara (94,7%) və Şəki-Zaqatala iqtisadi rayonlarında toplanır [7]. Üzüm əsasən Gəncə-Qazax (41,1% və ya 56,1 min t), Aran (12,8% və ya 17,5 min t) və Naxçıvan MR-də (11,4% və ya 15,6 min t) yığılır. Dağlıq Şirvan və Lənkəran-Astara iqtisadi rayonlarında da üzüm yığımı 10,0 min tondan çoxdur [11].

2005-ci ildən sonra ölkədə üzüm əkinləri 66,6% və ya 6,4 min t , bu sahələrdən məhsul toplanması 71,3% və ya 56,8 min t çoxalmışdır. Yeni emal müəssisələrinin tikilməsi, süfrə üzümlərinin istehsalına diqqətin artırılması əvvəllər üzümçülük olmayan rayonlarda da bu sahənin inkişafına imkan vermişdir. Nəticədə Şəki-Zaqatala iqtisadi rayonunda 2000-ci ildən sonra üzüm yığımı 2,0 dəfədən çox, Lənkəran-Astarada 7-8 dəfə, Gəncə-Qazaxda 3,0 dəfədən çox artmışdır. Abşeron iqtisadi rayonunda da üzün toplanması bir neçə dəfə çoxalmış və 8,5 min tona çatmışdır.

Ölkədə təbii-coğrafi şəraitin müxtəlifliyi, əhalinin əmək vərdişləri, müxtəlif məhsullara tələbatın olması və emal müəssisələrinin yaradılması, ixrac imkanlarının artması meyvəçiliyin müxtəlif sahələrinin inkişafına şərait yaradır. Ona görə ayrı-ayrı iqtisadi rayonlarda meyvəçiliyin istiqamətləri fərqlənir. Bu isə meyvə bağlarının sahəsinin artmasına və məhsul istehsalının genişlənməsinə tələbat yaradır.

Meyvəçilik Azərbaycanda kənd təsərrüfatının aparıcı sahələrindən biridir, keçid dövründə meyvə əkinlərinin sahəsi müəyyən qədər azalsa da, sonrakı illərdə bağlar bərpa edilmişdir. Ona görə 1990-cı ildə bağlar 136,0 min ha olsa da, 2000-ci ildə 83,1 min ha-ya qədər azalmış, 2015-ci ildə yenidən 114,1 min hektara yüksəlmiş və 1990-cı il səviyyəsinə çatmışdır. Son bir neçə ildə regionlarda yeni fındıq bağları salınması meyvə əkinlərinin sahəsinin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan vermişdir. Görülən tədbirlər 2015-2016-cı illərdə meyvə bağlarının 27,5 min ha və ya 19,1% artmasına imkan vermişdir. Bu sahədə əkinlərin genişləndirilməsi ilə yanaşı, məhsuldarlıq da bir neçə dəfə artırılmışdır. Ona görə məhsul yığımı ildən-ilə yüksəlir. 1990-cı ildə meyvəçilikdə məhsuldarlıq ölkədə orta hesabla 28,1 s/ha olduğu halda, 2000-ci ildə 62 s/ha-ya, 2014-cü ildə 72,0 s/ha-ya yüksəlmişdir. 2016-cı ildə ölkədə 882,8 min t meyvə və giləmeyvə toplanmışdır. Bu isə 2000-ci ilə nisbətən 1,9 dəfə (405,8 min t), 2005-ci ilə nisbətən 41,1% çoxdur [7, 8, 9].

Meyvə bağlarının sahəsinə görə Şəki-Zaqatala (52,5 min ha və ya 30,6%), Quba-Xaçmaz (46,7 min ha və ya 27,2%) və Aran (30,3 min ha və ya 17,7%) iqtisadi rayonları fərqlənir. Onların birlikdə meyvə bağları üzrə payı 75,5% təşkil edir. Məhsul yığımında isə Quba-Xaçmaz və Aran iqtisadi rayonları irəlidə durur: Müvafiq olaraq bu iqtisadi rayonlarda 256,4 min t (29,0%) və 216,5 min t (24,5%) məhsul toplanır. Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonlarında da 100,0 min tondan çox meyvə yığılır.

**4. Nəticə**.

Regionlarda emal müəssisələrinin yeni obyektlərinin təşkili, saxlama kameraları və tədarük məntəqələri yaradılması, bu sahənin inkişafında xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, toplanan məhsulların xeyli hissəsi xarab olur, istehlakçılara çatdırılmır, xarici ölkələrdən böyük həcmdə məhsul ixrac edilir. Meyvəçilikdə yeni sortların tətbiqi, aqrotexniki qaydalara əməl edilməsi bu sahənin ixrac imkanlarını da artırar. Ölkədə əhalinin meyvə şirəsi, kompot, meyvə püresi, meyvə qurusuna tələbatı yüksəkdir. Bu məhsulların az bir hissəsi daxili istehsal hesabına ödənilir.

## ƏDƏBİYYAT


1. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, Nasir, 2007, 602 s.
2. Abbasov İ. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, “Şərq-Qərb”, 2013, 712 s.
3. Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Bakı, “Elm və Təhsil”, 2017, 501- s.
4. Ataşov B.X., Ərzaq təhlükəsizliyinin aktual problemləri, Bakı, 2005, 336 s.
5. Azərbaycanın demoqrafik göstəriciləri 2016. Bakı: DSK, 2017, 472 s.
6. Azərbaycanın ərzaq balansları, 2015, Bakı, DSK, 2016, 88 s.
7. Azərbaycanın kənd təsərrüfatı - 2016. Вакı: ДSK, 2017, 608 c.
8. Azərbaycanın statistik göstəriciləri -2016. Bakı: DSK, 2017, 814 s.
9. Azərbaycan rəqəmlərdə, 2015, Bakı: DSK, 2016, 145 s.
10. Azərbaycanın iqtisadi və sosial coğrafiyası, BDU, 2010, 470 s.
11. Azərbaycanın regionları - 2016. Bakı: DSK, 2017. 806 s.
12. Azərbaycanın sənayesi 2016. Bakı: DSK, 2017, 344 s.
13. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). “Azərbaycan” qəz, Bakı, 2004, 13 fevral.
14. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər). “Respublika” qəz, Bakı, 2009, 16 aprel.
15. Azərbaycanın konstruktiv coğrafiyası. III hissə. Bakı, 2000. 256 s.
16. Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı (2008-2015). Bakı, 2008, 51 s.
17. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol xəritəsi. Strateji Yol xəritələri. Bakı: 6 dekabr 2016. S. 115-286.
18. Azərbaycan Respublikasının coğrafiyası. II cild. İqtisadi, sosial və siyasi coğrafiya. Bakı, 2015, 327 s.
19. Azərbaycan Respublikasının coğrafiyası. III cild. Regional coğrafiya. Bakı, 2015, 400 s.
20. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı, Elm, 2007, 465 s.
21. Məmmədli O., İsmayılov M., İsmayılov F. Milli iqtisadiyyatın tənzimlənməsi. Bakı, “MBM”, Bakı, 2014, 624 s.
22. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 2010, 416 s.
23. Regionların sosial-iqtisadi inkişafı (2009-2013-cü illər). Bakı, DSK. Yanvar 2014, 507 c.
24. Regionların sosial-iqtisadi inkişafı (2014-2018-ci illər). Bakı, DSK. Yanvar 2016, 594 c.
25. Гаджизаде А.М. Азербайджанский промышленный комплекс. Баку: Азернешр, 1975, 204 с.

## ПРОБЛЕМЫ РАЗВИТИЯ РАСТЕНИЕВОДСТВА В РЕГИОНАХ АЗЕРБАЙДЖАНА И РОЛЬ ЭТОЙ ОТРАСЛИ В ПРОДОВОЛЬСТВЕННОМ ОБЕСПЕЧЕНИИ

**З.Р.Бабаева**

Продовольственная безопасность является одной из важнейших задач страны. Продукты питания являются основными составляющими сельскохозяйственной продукции. Исследования показывают, что спрос населения на ряд продуктов питания не полностью удовлетворен местным производством. Сельское хозяйство является одним из основных видов экономической деятельности. Поэтому одной из важных задач является повышение продуктивности в этой отрасли.

Экономические районы специализируются по производству и переработке сельхозпродуктов в соответствии природным условиям. При этом качество продуктов в этой отрасли также имеет важное значение. Одним из основных показателей является уровень самообеспеченности пищевыми продуктами. Для решения этой задачи требуются повышение продуктивности с сельском хозяйстве и увеличение производства продукции в этой отрасли.

**Ключевые слова**: продовольственная безопасность, сельское хозяйство, продовольственная обеспеченность, экономические районы, животноводство, пищевая промышленность, отрасли растениеводства.

## THE FOOD SUPPLY POTENSIAL OF AZERBAIJAN REGIONS AND THEIR USAGE USSUE

**Z.R.Babaeva**

Food security in the country is one of the most important tasks of the state. Agricultural products are the main base for foodstuff production and domestic market protection. İnvestigations show that the population's demand for a number of food and food products is not absolutely met by domestic production. As we know, agriculture is one of the main types of economic activity that the population is engaged in for a long time.

Some economic regions are specialized in the processing and production of agricultural products in accordance with its natural conditions. It would be reasonable that this trend to cover other economic regions too. The quality of food products is also important in this context. One of the main indicators of food supply is the level of meeting domestic food demand. The protection of the domestic market, the supplement of agricultural products to domestic demand and competitive ability are among the important factors. It is required to increase productivity and to increase productivity in agriculture for solving this problem.

**Ker words:** food safety, agriculture, food supply, economic regions, livestock, food industry, vegetation fields